**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Dövlət Sosial Müdafiə Fondunun nümayəndələrinin ATİB üzvləri ilə görüşü keçirildi

**No: 09/06/85**
**02.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu Sığorta-pensiya siyasəti və strateji araşdırmalar şöbəsinin müdiri Elman Mehdiyev, Maliyyə-büdcə şöbəsinin müdiri İdris İsayev və Fərdi Uçotun təşkili şöbəsinin müdiri Şəlalə Cəfərova ilə ATİB üzvlərinin görüşü keçirildi. Görüşün keçirilməsində məqsəd Azərbaycan Respublikasının sosial sığorta və əmək pensiyası siyasəti, icbari sosial sığorta, fərdi uçot sistemi və s. barədə iş adamlarını məlumatlandırmaq idi.

İ.İsayev fərdi uçot sistemi ilə bağlı bəyannamənalərin yaxın zamanlarda qəbul edilməyə başlanacağını bildirdi. İ.İsayev həmçinin yeni DSMF formalarını təqdim olunacağını da bildirdi: "Yaxın zamanda www.sspf.gov.az saytında yeni DSMF hesabat forması yerləşdiriləcək və onun doldurulma qaydası da göstəriləcək. Bu, əvvəlki hesabat formasından kəskin şəkildə fərqlənəcək."

E.Mehdiyev əmək miqrantlarının sosial sığorta haqlarının qorunması baxımından digər ölkələrin sığorta qurumları ilə əməkdaşlıq edildiyini bildirdi. E.Mehdiyev həmçinin 2009-cu ilin aprel ayında Türkiyə Cümhuriyyətinə səfər ediləcəyi və qarşılıqlı təcrübə mübadiləsinin həyata keçiriləcəyi barədə də məlumat verdi.

E.Mehdiyev hər bir vətəndaşın adına hesab açıldığı və onun ödədiyi sığorta haqqına görə sığorta hüququnun müəyyən edildiyi barədə məlumat verdi: "Əmək kitabçası DSMF üçün əhəmiyyətini itirir. Lakin bu, əmək kitabçasının ləğvi deyil. Əmək kitabçası vətəndaşın zəruri sənədləri sırasında yer almaqda davam edəcək."

E.Mehdiyev gələcəkdə sosial sığorta şəhadətnaməsinin işə götürənlərin işçidən tələb edilən sənədlər sırasına daxil edilməsinin də mümkünlüyünü ifadə etdi.

E.Mehdiyev yeni tətbiq olunan sistemin əsas həvəsləndirici amilinin indeksləşdirmə olduğunu qeyd etdi: "Sığorta olunan tərəfindən ödənən vəsait inflyasiyadan qorunur". E.Mehdiyev gələcəkdə vətəndaşları bu sistemə cəlbi üçün ödənilən sığorta haqları barədə məlumatların elektron ünvan və ya cib telefonlarına göndərilməsi ehtimalını də istisna etmədi.

Ş.Cəfərova işə qəbul edilən şəxsin 1 ay müddətində fərdi uçot sistemində uçota alınmaq üçün qeydiyyata düşməli olduğundan söz açaraq onu bildirdi ki, hər bir sığorta olunan üçün ilin sonunda ödədiyi sığorta haqqında məlumat göndəriləcək. Ş.Cəfərova bu prosesin ləngimədən həyata keçirilməsi üçün həqiqi yaşayış yerlərini dəyişmələri haqqında məlumat vermələrinin zəruri olduğunu qeyd etdi.

Ş.Cəfərova həmçinin sığorta olunanın neçə yerdə işləməsindən asılı olmayaraq bu barədə DSMF-ə təqdim etdiyi bəyannamədə məlumat verməli olduğunu bildirdi və bəyannamənin dəqiq doldurulmasınının zəruriliyin ibildirdi, əks halda sisteminin şəxsi tanımayacağı barədə də xəbərdarlıq etdi. Ş.Cəfərova yaxın zamanlarda elektron bəyannamələrin də təqdim olunacağını bildirdi.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**